Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti UNESCO-nun Qlobal Təhsil Görüşündə iştirak üçün Braziliyanın Fortaleza şəhərində səfərdədir.

Tədbirin ilk günündə nümayəndə heyəti Qlobal Təhsil Monitorinqi Hesabatının təqdimatında, eləcə də təhsildə bərabərlik və inklüzivlik, təhsil, elm və texnologiya kimi bir sıra plenar sessiyalarda iştirak edib.

Oktyabrın 31-də Emin Əmrullayev tədbirin iqlim və ətraf mühit mövzusuna həsr olunmuş sessiyasında bağlanış nitqi ilə çıxış edib. Sessiyadakı çıxışında nazir Azərbaycanda həyata keçirilən yaşıl təhsil və iqlim təhsili siyasəti haqqında məlumat verib və ölkəmizin uğurlu təcrübələrini bölüşüb. Emin Əmrullayev həmçinin tezliklə ölkəmizdə keçiriləcək COP29-un əhəmiyyətini vurğulayıb və auditoriya iştirakçılarını bu tədbirdə iştiraka dəvət edib.

31 oktyabr – 1 noyabr tarixlərində keçirilən UNESCO-nun Qlobal Təhsil Görüşündə təşkilata üzv ölkələrin təhsil və maliyyə nazirləri, UNESCO-nun baş direktorunun təhsil üzrə müavini Stefaniya Ciannini və bir sıra təşkilatların rəsmiləri iştirak edirlər.

Qeyd edək ki, tədbir bu gün öz işinə yekun vuracaq.